8 MART BEYNƏLXALQ QADINLAR GÜNÜDÜR

Vətən bölünməzdir!

LƏNKƏRAN

İCTİMAİ-SİYASİ QƏZET

№ 09-10 (8271) ◉ Cümə axşamı, 5 mart 2015-ci il ◉ Qəzetin əsası 1931-ci ildə qoyulmuşdur ◉ Qiyməti 50 qəpik

RƏSMİ XRONİKA

Azərbaycan Prezidenti İlham Əliyev fevralın 17-də ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müavininin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

***

Azərbaycan Prezidenti İlham Əliyev fevralın 19-da ABŞ-ın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib.

***

Azərbaycan Prezidenti İlham Əliyev fevralın 23-də yunan-roma güləşi üzrə dünya kuboku yarışlarında qalib gəlmiş milli komandamızın üzvlərini qəbul edib.

***

Azərbaycan Prezidenti İlham Əliyev fevralın 24-də Avropa İttifaqının xüsusi nümayəndəsinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

***

Azərbaycan Prezidenti İlham Əliyev fevralın 24-də Mingəçevirdə Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib.

***

Azərbaycan Prezidenti İlham Əliyev fevralın 24-də Mingəçevirdə Heydər Əliyev Parkında aparılan yenidənqurma işləri ilə tanış olub.

***

Azərbaycan Prezidenti İlham Əliyev fevralın 24-də Mingəçevir "Kür" Olimpiya Tədris-İdman Mərkəzində olub.

***

Azərbaycan Prezidenti İlham Əliyev fevralın 25-də Türkiyənin xarici işlər nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

***

Azərbaycan Prezidenti İlham Əliyev fevralın 26-da Xocalı faciəsi qurbanlarının xatirəsini anma mərasimində iştirak edib.

***

Azərbaycan Prezidenti İlham Əliyev fevralın 27-də Polşanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib.

***

Azərbaycan Prezidenti İlham Əliyev martın 2-də Böyük Britaniya Baş nazirinin ticarət məsələləri üzrə elçisini qəbul edib.

LƏNKƏRANDA XOCALI FACİƏSİ QURBANLARININ XATİRƏSİ YAD EDİLDİ

Xocalı faciəsi bizim əbədi və sağalmaz dərdimiz, yaramız olduğundan bir vətəndaş kimi hər gün, hər saat bu ağrını, bu acını qəlbimizdə hiss edirik. Hər il fevralın 26-da isə bütün Azərbaycan xalqı bir nəfər kimi Xocalı soyqırımı qurbanlarının xatirəsini yad edir, onlara Allahdan rəhmət diləyir, şəhid olanların yaxınlarına, doğmalarına dərin hüznlə başsağlığı verir.

Respublikamızın hər yerində olduğu kimi, Lənkəranda da Xocalı faciəsinin 23-cü ildönümü dərin ehtiramla yad edildi.

Fevralın 26-da Lənkəran ŞİH-nin başçısı Taleh Qaraşov, İcra aparatının kollektivi, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, ictimaiyyətin nümayəndələri, tələbələr, məktəblilər, hərbi hissələrin şəxsi heyəti şəhərimizdə Azərbaycanlıların Soyqırımı Qurbanlarının Xatirəsinə ucaldılmış abidə-kompleksin önünə gələrək faciə qurbanlarının xatirəsini dərin hüznlə yad etdilər.

Əvvəlcə İcra başçısı Taleh Qaraşov abidə-kompleksin önünə əklil qoydu, Xocalı soyqırımı qurbanlarının əziz xatirəsinə ehtiram əlaməti olaraq təzim etdi.

Xocalı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Sonra N.B.Vəzirov adına Lənkəran Dövlət Dram Teatrı aktyorlarının ifasında "Qisas sabaha qalmaz" adlı kompozisiya nümayiş etdirildi.

Sonda ümumxalq ziyarəti başladı.

Fevralın 26-da Lənkəran Dövlət Universitetində, rayonun orta ixtisas və ümumtəhsil məktəblərində ilk dərslər Xocalı qətliamına həsr edildi, müxtəlif idarə və təşkilatlarda, qəsəbə və kəndlərdə anım mərasimləri, xatirə gecələri keçirildi.

Səh.2

Lənkəranda Od çərşənbəsi qeyd edildi

Hirkan qəsəbəsində səyyar qəbul-görüş

Səh.3

Səh.4

Zərif əllərin naxış dünyası

Çayçılığın inkişafı bizi sevindirir

Səh.6

Səh.7

Generalla söhbət

APARAT MÜŞAVİRƏSİ

Fevralın 24-də Lənkəran Şəhər İcra Hakimiyyətində növbəti Aparat müşavirəsi keçirildi. Müşavirədə İcra aparatının kollektivi, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatlarının rəhbərləri, inzibati ərazi dairələrinin nümayəndələri və bələdiyyə sədrləri iştirak edirdilər.

Müşavirəni giriş sözü ilə açan Lənkəran ŞİH-nin başçısı Taleh Qaraşov son günlər havaların kəskin soyuması, intensiv yağışların və qarın yağması ilə əlaqədar olaraq yaranmış çətinliklərin aradan qaldırılması ilə bağlı görülmüş işlər barədə geniş məlumat verərək qeyd etmişdir ki, rayonun xidmət təşkilatlarının, inzibati ərazi dairələrində nümayəndələrin və yerli bələdiyyələrin birgə səyi ilə təbii fəlakətin fəsadları qısa müddətdə aradan qaldırılmışdır. Bununla belə, İcra başçısı bildirmişdir ki, Liman şəhəri istiqamətində yağan güclü qar şəhərin elektrik enerjisi təchizatında qısamüddətli fasilələr yaratmışdır.

Natiq daha sonra rayon ərazisində süni qiymət artımının qarşısının alınması istiqamətində ciddi tədbirlərin görüldüyünü diqqətə çatdırmış, ticarət və xidmət obyektlərində belə halların müşahidə ediləcəyi təqdirdə sahibkarlar və iş adamları haqqında qanunamüvafiq tədbirlərin görüləcəyini vurğulamışdır.

T.Qaraşov həmçinin yol kənarlarında reklam yazılarının düzgün, Azərbaycan dilində yazılmasına xüsusi nəzarətin edilməsinin və bu məqsədlə əhali arasında maarifləndirmə işlərinin aparılmasının zəruriliyini söyləmiş, bununla əlaqədar yaradılmış komissiyaya müvafiq tapşırıqlarını vermişdir.

İcra başçısı bildirmişdir ki, havalar istiləşdikcə şəhərdə və rayon ərazisində abadlıq-təmizlik işləri də sürətləndirilməlidir. Rayonun Qumbaşı kəndindən Parakənd kəndinə qədər olan ərazidə magistral yollar boyunca tullantılar yığışdırılaraq səliqə-sahman və abadlıq işlərinə diqqət artırılmalıdır.

T.Qaraşov rayonun bütün idarə, müəssisə və təşkilatlarında əmək intizamına riayət olunmasını, dövlət idarələrində vətəndaşların qəbulu, müraciətlərinə baxılması işini yaxşılaşdırmaq məqsədilə komissiya tərəfindən reydlərin davam etdirilməsini, intizamsızlığa yol verən dövlət qulluqçuları və işçilər barədə müvafiq tədbirlərin görülməsinin və rəhbər işçilərdən bu barədə rəsmi arayışın alınmasının vacibliyini xüsusi qeyd etmişdir.

Natiq çıxışında Azərbaycan Respublikası Milli Məclisinin orqanı olan "Azərbaycan" qəzetinin 12 fevral 2015-ci il tarixli nömrəsində "Ölkə Prezidentinin vətəndaş müraciətlərinə baxılmasında açdığı yeni mərhələ: yüksək diqqət, qayğı və tələbkarlıq" başlıqlı yazıda Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Süleyman İsmayılovun 2014-cü ildə bu sahədə görülmüş işlər barədə təhlilini bir daha müşavirə iştirakçılarının diqqətinə çatdırmışdır. İcra başçısı yazıda Lənkəran rayonu ilə bağlı fikirlərin də yer aldığını, bildirilmiş iradların aradan qaldırılması ilə əlaqədar təcili və təxirəsalınmaz tədbirlərin görülməsinin vacibliyini qeyd etmiş, vətəndaş müraciətlərinə laqeyd münasibət bəsləyən, qaldırılan problemlərin həllinə vaxtında səy göstərməyən rəhbər işçilər barədə ciddi intizam tənbehi görüləcəyini vurğulamışdır.

Sonra T.Qaraşov Xocalı soyqırımının 23-cü ildönümü, 8 Mart Beynəlxalq Qadınlar günü və Novruz bayramının rayonda yüksək səviyyədə keçirilməsi ilə əlaqədar tövsiyə və tapşırıqlarını vermişdir.

İcra başçısı sonda bu il Bakı şəhərində keçiriləcək I Avropa Oyunlarının məşəlinin estafet marşrutunun Lənkəran şəhərindən də keçəcəyini, bunun şəhərimizin ictimai-siyasi və mədəni həyatında çox əlamətdar hadisə olacağını da bildirmişdir.

LƏNKƏRAN ŞƏHƏR İCRA HAKİMİYYƏTİ BAŞÇISININ SƏRƏNCAMI

YAŞILLAŞDIRMA AYLIĞININ KEÇİRİLMƏSİ HAQQINDA

"Yerli İcra hakimiyyətləri haqqında Əsasnamə"nin tələbinə uyğun olaraq Lənkəran şəhərində və rayon ərazisində yeni yaşıllıqların salınması məqsədilə **qərara alıram:**

1. Lənkəran, Liman şəhərlərində, rayonun qəsəbə və kəndlərində 2015-ci ilin mart ayının 1-dən 31-dək yaşıllaşdırma aylığı keçirilsin.

2. Yaşıllaşdırma aylığının keçirilməsi ilə bağlı tədbirlər planı təsdiq edilsin (tədbirlər planı əlavə edilir).

3. Lənkəran Şəhər İcra Hakimiyyəti başçısı aparatının şöbələri, inzibati ərazi dairələrindəki nümayəndələri, Lənkəran şəhər Mənzil istismar və kommunal müəssisələr idarəsi, Lənkəran şəhər Mənzil təsərrüfatı idarəsi, Lənkəran şəhər 1 saylı sahə inzibati ərazi dairəsi üzrə nümayəndəliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 1 saylı ərazi şöbəsi, Lənkəran Meşə bərpası və mühafizəsi müəssisəsi, Hirkan Milli Parkı və digər aidiyyatı təşkilatlar Lənkəran və Liman şəhərlərinin park və bağlarında, qəsəbə və kəndlərdə, magistral yollar boyunca, küçə kənarlarında, idarə, müəssisə və təşkilatların binaları ətrafında müxtəlif növ ağac və dekorativ kolların əkilməsini təmin etsinlər.

4. Şəhər İcra hakimiyyəti başçısı aparatının şöbələri tədbirlər planında nəzərdə tutulmuş işlərin təşkilinə əməli köməklik göstərsinlər.

5. Sərəncam "Lənkəran" qəzetində dərc olunmaqla məzmunu barədə əhaliyə məlumat çatdırılsın.

6. Sərəncamın icrasına nəzarət Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini İlqar Dadaşova tapşırılsın.

Taleh QARAŞOV,
Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı
20 fevral 2015-ci il

Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının 20 fevral 2015-ci il tarixli 60 nömrəli sərəncamı ilə təsdiq edilmişdir.

Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının sərəncamı ilə 2015-ci ilin mart ayının 1-dən 31-dək rayonda keçiriləcək yaşıllaşdırma aylığına dair tədbirlər planı

Sıra №	Ağac əkini keçiriləcək şöbə və təşkilatların adı	Əkiləcək ağacların sayı	Damır ağac	Palıd	Sərv	Eldar şamı	Çinar	Palma	Akasiya	Yalan qoz	Ağac əkiləcək yerlər
1.	İcra nümayəndələri və bələdiyyələr	1500	500	500	50	50	50	50	50	250	Ərazilərdə və magistral yolların kənarlarında
2.	Hirkan Milli Parkı	2000	350	350	250	250	200	100	200	300	Magistral yolların kənarlarında
3.	Meşə Mühafizəsi və Bərpası müəssisəsi	2000	350	350	250	250	200	100	200	300	Sütəmurdov kəndi ərazisində və magistral yolların kənarlarında
4.	Yuxarı Xanbulançay Hidroqovşağı İstismar idarəsi	250	50	50	50	50		25	25		Şəhidlər Xiyabanı ərazisində
5.	Regional Aqrar Elm Mərkəzi	200	50	50	25	25	25		25		Mərkəzin ətrafında, magistral yolun kənarında
6.	Meliorasiya idarəsi	200	50	50	25		25	25	25		Şəhidlər xiyabanı yaşayış massivində
7.	Yaşıllaşdırma idarəsi	500	100	100	50	50	100	50	25	25	Şəhərin park və bağlarında
8.	Abadlıq kombinatı	350	100	100	50	25	25	25	25		Şəhər ərazisində
9.	Mənzil İstismar və Kommunal müəssisələr idarəsi	350	100	100	50	25	25	25	25		Çoxmərtəbəli yaşayış binalarının həyətlərində
10.	Ekologiya və təbii sərvətlər nazirliyinin 1 saylı ərazi idarəsi	500	150	150	50	50	50	25	25		Magistral yollar boyunca
11.	İctimai-siyasi və humanitar məsələlər şöbəsi	900	200	200	50	50	100	100	100	100	Təhsil, səhiyyə və mədəniyyət müəssisələrinin yerləşdiyi ərazilərdə
12.	Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsi	1450	500	500	150	50	50	50	50	50	Hava Limanı ərazisində və magistral yollar boyunca
	Cəmi:	10200	2500	2500	1050	875	850	575	775	1075	

LƏNKƏRANDA OD ÇƏRŞƏNBƏSİ QEYD EDİLDİ

Martın 3-də xalq təqvimi ilə boz ayın çərşənbələrindən ikincisi sayılan Od çərşənbəsi Lənkəranda da böyük coşqu ilə qeyd edildi.

Həmin gün şəhərin Dəmiryolu vağzalı ərazisindəki meydanda keçirilən bayram şənliyində çərşənbə adətlərinə uyğun tonqal qalandı, Keçəlin, Kosanın və Bahar Qızının ifasında şən, məzəli səhnəciklər göstərildi, rayonun incəsənət ustalarının

ifa etdikləri mərasim nəğmələri və xalq mahnıları tədbirə xüsusi təravət gətirdi, Nəcəf bəy Vəzirov adına Lənkəran Dövlət Dram Teatrı aktyorlarının ifasında Novruz adətlərinə aid müxtəlif səhnəciklər nümayiş etdirildi.

Bayram tədbirində Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçisi Habil Əzəmmədov, İcra başçısının müavinləri, İcra Aparatının kollektivi, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, şəhər sakinləri, ictimaiyyətin nümayəndələri iştirak edirdilər.

Şən əhval-ruhiyyə ilə keçən bayram tədbiri böyükdən-kiçiyə hamıya xoş ovqat bəxş etdi.

HİRKAN QƏSƏBƏSİNDƏ SƏYYAR QƏBUL-GÖRÜŞ

Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov növbəti səyyar qəbul-görüşünü martın 4-də Hirkan qəsəbəsində keçirdi. Görüşdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçisi Habil Əzəmmədov, İcra başçısının müavinləri, İcra Aparatının şöbə müdirləri, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatlarının rəhbərləri, Hirkan qəsəbəsinin və Parakənd kəndinin sakinləri iştirak edirdilər.

Lənkəran ŞİH başçısının Hirkan inzibati ərazi dairəsi üzrə nümayəndəsi Mehman Xəlilov məlumat verərək bildirdi ki, inzibati ərazi dairəsi Hirkan qəsəbəsini və Parakənd kəndini birləşdirir. Ərazi üzrə 739 təsərrüfatda 3246 nəfər əhali yaşayır. Ümumi ərazi 735 hektardır. Əhali əsasən əkinçilik, sitrusçuluq və maldarlıqla məşğuldur.

İcra nümayəndəsi əlavə etdi ki, qəsəbənin inkişaf tarixi Ulu Öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Liderimiz ilk siyasi hakimiyyəti dövründə Lənkərana səfərləri zamanı dəfələrlə qəsəbədə olmuş, əhali ilə birbaşa çay plantasiyalarında görüşmüş, onların qayğıları ilə maraqlanmış, sovxoz təsərrüfatının inkişafı, sakinlərin firavanlığı üçün tövsiyə və tapşırıqlarını vermişdir. Əhali həmin görüşləri bu gün də xoş təəssüratlarla xatırlayır. Onlar hazırda Ulu Öndərin layiqli davamçısı cənab Prezident İlham Əliyevin qayğı və diqqətinin bəhrələrinin şahididirlər.

Sonra çıxış üçün söz ayrı-ayrı sakinlərə verildi.

Axund Ayaz Mirzəyev, təqaüdçü Fərman Salayev, Hirkan qəsəbə tibb məntəqəsinin müdiri Seyidəmir Babayev, Hirkan qəsəbə tam orta məktəbinin direktoru Adil Kərimov, Parakənd kənd sakini Ehtiram Nabatov və başqaları çıxış etdilər, arzu və təkliflərini söylədilər. Bildirildi ki, cənab Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmiz sürətlə inkişaf edir və gündən-günə abadlaşır. Dövlət başçımızın diqqət və qayğısı sayəsində Lənkəran rayonunda da genişmiqyaslı abadlıq və tikinti-quruculuq işləri aparılır. Lənkəran şəhəri bu gün respublikamızın ən gözəl şəhərlərindən birinə çevrilmişdir. Hirkan qəsəbəsində 480 şagird yerlik yeni məktəbin tikilib istifadəyə verilməsi, qəsəbənin, o cümlədən Parakənd kəndinin başdanbaşa qazlaşdırılması, 600 metrlik yolun asfaltlaşdırılması, qəsəbədə bankomatın qoyulması və s. əhalinin böyük razılığına səbəb olmuşdur.

Çıxışlarda həmçinin bir sıra təkliflər irəli sürüldü, Hirkan tibb məntəqəsinin, Parakənd kəndində məktəb binasının əsaslı təmirə ehtiyacı olduğu, magistral yol boyunca kanalların təmizlənməsi və s. diqqətə çatdırıldı.

Prezident Administrasiyasının məsul işçisi Habil Əzəmmədov bu gün çox gözəl səyyar qəbul-görüşün şahidi olduğunu söyləyərək qeyd etdi ki, belə görüşlər hakimiyyətlə əhali arasında körpü rolunu oynayır. Qəbul olunmuş Dövlət proqramlarına əsasən regionların sosial-iqtisadi inkişafı mərhələ-mərhələ həyata keçirilir. Əhali tərəfindən qaldırılan problemlər əhəmiyyətinə və mühümlüyünə görə Prezident Administrasiyasında nəzərə alınır. Bunun üçün bütün təkliflər sistemləşdirilir və müvafiq qurumlar qarşısında məsələ qaldırılır, konkret tapşırıqlar verilir.

Səyyar qəbul-görüşü yekunlaşdıran İcra başçısı Taleh Qaraşov bildirdi ki, Lənkəranda müasirləşmə, yeniləşmə prosesi həyata keçirilir, Dövlət Proqramında nəzərdə tutulan vəzifələr sürətlə yerinə yetirilir. Dövlət başçısı Azərbaycan vətəndaşlarının daha yaxşı yaşaması üçün çoxsaylı sərəncamlar, fərmanlar imzalayır. Mövcud problemlər öz həllini tapır. İnsan amili əsas faktor kimi daim diqqət mərkəzindədir.

İcra başçısı daha sonra süni qiymət artımının qarşısının alınması üçün İcra hakimiyyətində onun sədrliyi ilə xüsusi komissiyanın yaradıldığını və neqativ halların qarşısının qətiyyətlə alındığını, bu sahədə nöqsanlara yol verənlərin cəzalandırıldığını xüsusi vurğuladı.

Taleh Qaraşov sonda lənkəranlıların həmişə Ulu Öndər Heydər Əliyevin ideyalarına sadiq olduqlarını söylədi, bütün lənkəranlıları dövlət başçısı İlham Əliyevin ətrafında sıx birləşməyə çağırdı, qarşıdan gələn 8 Mart Beynəlxalq Qadınlar günü və əziz Novruz bayramı münasibətilə təbriklərini, hamıya ən səmimi və xoş arzularını çatdırdı.

İ.ƏHMƏDOV,
Ə.BƏDƏLOV (foto)

NƏQLİYYAT NAZİRİ LƏNKƏRANDA VƏTƏNDAŞLARI QƏBUL EDİB

Azərbaycanın nəqliyyat naziri Ziya Məmmədov fevralın 27-də Lənkəran şəhərindəki Heydər Əliyev Mərkəzində Astara, Lənkəran və Lerik rayonlarından olan vətəndaşları qəbul edib. Qəbulda "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov, "Azəryolservis" Açıq Səhmdar Cəmiyyətinin sədri vəzifəsini icra edən Saleh Məmmədov, Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin rəisi Hüseyn Salamov da iştirak ediblər.

Nazir Z.Məmmədova ünvanlanmış müraciətlərin əksəriyyəti rayonlararası və kənddaxili yollarının bərpası, dağ çayları üzərində körpülərin salınması, Lerik şəhərində avtovağzal binasının tikintisi, işlə təmin olunmaq və s. məsələlərdən ibarət olub.

Qaldırılan məsələlərin əksəriyyəti yerindəcə həll olunub. Z.Məmmədov vətəndaşların digər müraciətləri ilə bağlı tabeliyində olan qurumların rəhbərlərinə tapşırıqlarını verib.

Nəqliyyat Nazirliyinin səlahiyyətinə aid olmayan və şəxsi xarakter daşıyan müraciətlər isə aidiyyəti təşkilatlara çatdırılmaqdan ötrü qeydiyyata alınıb və nəzarətə götürülüb.

8 MART BEYNƏLXALQ QADINLAR GÜNÜDÜR

ANA

Ana! Bu gün bu ad Vətənimizdə,
Daha geniş məna kəsb edir bizdə.
Analar alimdir, akademikdir,
Deputatdır Milli Məclisimizdə.
Ana - müəllimdir, ana - ədibdir,
Ana - mühəndisdir, ana təbibdir.
Birinci xanımı Azərbaycanın
Hörmətli Mehriban Əliyevanın
Bizdən UNESCO-nun və İSESCO-nun
Gözəl xoş məramlı səfiridir o,
Xalqın ehtiramlı səfiridir o.
Gah uşaq evində, gah bağçalarda,
Harda kimsəsiz var, görünür orda.
Onda mehribanlıq ədası vardır,
Körpəyə, qocaya nəvazişkardır.
Onun əlilə də çoxdu yüksəliş,
Analar yanında səmimanadır.
Özü də anadır, xanım anadır.
Yüksəkdir, alidir bizim analar,
Qürur timsalıdır bizim analar.
Övladları xalqa çox əziz olur,
Özü adı kimi mehriban olur.
Yaşa, xoş əməllər süsləyən ana,
Mübariz oğullar bəsləyən ana.
Təbrik amalına, adına təbrik!
Nəcib ana adlı qadına təbrik!

Hacı Mirhaşım TALIŞLI,
04.03.2011-ci il

HADİ RƏCƏBLİDƏN ŞAGİRDLƏRƏ YAXŞI FÜRSƏT

Milli Məclisin Sosial Siyasət Komitəsinin sədri Hadi Rəcəbli Lənkəran məktəblilərinin 9-cu sinif şagirdləri arasında 2014-2015-ci dərs ilinin yekunlarına həsr olunan "Hikmət, ismət və dəyanət" mövzularında ənənəvi müsabiqə elan edib.

325 nəfər əlaçı və fəal məktəblinin qatıldığı müsabiqədə nümunəvi davranışına, təhsil və idman sahəsində qazanılan uğurlara görə I, II və III yerlər üçün 9 mükafat müəyyənləşdirilmişdir.

Deputat I yerləri qazanmış məktəblilərə uşaq istirahət düşərgələrinin birində bir həftəlik dincəlmək üçün göndəriş, II yerlər üçün mobil telefonlar, III yerlər üçün maraqlı dəftərxana və kitab dəsti verilməsini nəzərdə tutmuşdur.

Mükafatlar qaliblərə may ayının sonunda, deputatın Lənkəran şəhərindəki qəbul otağında təqdim olunacaqdır.

16 ildən bəri mütəmadi olaraq aparılan belə müsabiqələrdə minlərlə məktəbli iştirak etmiş, qaliblərin böyük əksəriyyəti ali məktəblərə daxil olmuş, ictimai-siyasi həyatda fəallıqları ilə fərqlənmişdir.

ZƏRİF ƏLLƏRİN NAXIŞ DÜNYASI

Martın 2-də Heydər Əliyev Mərkəzində 8 Mart Beynəlxalq Qadınlar günü münasibətilə şəhər İcra hakimiyyətinin və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "Zərif əllərin naxış dünyası" adlı əl işlərindən ibarət sərgi keçirilib. Sərgidə rayonun müxtəlif sahələrində çalışan isdedadlı xanımların müxtəlif səpkili rəsm əsərləri, heykəltaraşlıq və tətbiqi incəsənət nümunələri, əl ilə toxunmuş xalılar və s. nümayiş olunub.

Sərgidə Heydər Əliyev Mərkəzinin direktoru Seyidzadə Şəfiyeva, ŞİH-nin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Səbirə Əliyeva çıxış edərək Azərbaycan qadınının dövlətimizin inkişafı, gənclərin tərbiyələnməsi işində göstərdiyi müstəsna xidmətlərindən danışdılar, bütün qadınları səmimi qəlbdən təbrik etdilər.

Sərgidə nümayiş olunan incəsənət nümunələri haqqında iştirakçılara ətraflı məlumat verildi. Əsərlər arasında xalçaçı-rəssam Aygün İbrahimovanın, bağça müəllimləri Zinyət Məmmədova, Məlahət Qasımova, Sevda Məmmədovanın, tərbiyəçilərdən Rəmziyə Ələkbərova, Gülarə Bədəlovanın ərsəyə gətirdikləri incəsənət nümunələri xüsusilə iştirakçıların diqqətini çəkdi.

Qeyd edək ki, sərgi 8 Mart Beynəlxalq Qadınlar gününədək ictimaiyyətin bütün nümayəndələri üçün açıq olacaqdır.

Nurlan Nəsirov,
Əyyar Bədəlov (foto)

MƏKTƏB HƏYATI

VƏTƏNƏ MƏHƏBBƏT RUHUNDA

Bu gün hər birimizin qarşısında çox məsul vəzifə, mühüm bir yol durur. Bu yol müstəqil Azərbaycanımızın gələcəyi yoludur. Bu yolu inkişaf etdirmək hər birimizin müqəddəs borcudur. Doğma Azərbaycanımızın müstəqilliyini gözü götürməyən qüvvələr çoxdur. Bu şər qüvvələrə qarşı mübarizə aparmaq, ölkəmizin müstəqilliyini qorumaq bizim vəzifəmiz və vətəndaşlıq borcumuzdur. Ulu Öndər Heydər Əliyev hələ sağlığında demişdir: "Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm. Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini də harda oluramsa olum, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə sərf edəcəyəm. Azərbaycan bundan sonra da heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir ölkənin əsarəti altına düşməyəcəkdir."

Azərbaycanımızın səadəti və istiqlaliyyəti, xalqımızın xoşbəxtliyi və tərəqqisi uğrunda misilsiz mərdlik və qəhrəmanlıq göstərən, bu yolda öz canını belə əsirgəməyən, Vətəni sonsuz məhəbbətlə sevən qəhrəmanlarımız ölkəmizin hər yerində böyük ehtiramla, sonsuz hörmətlə xatırlanır.

Məktəbimizdə də belə qəhrəman oğul və qızlarımızın xatirəsi daim yad edilərək əziz tutulur. Məktəbimizdə vətənpərvərlik mövzularında vaxtaşırı bədii gecələrin və disputların keçirilməsi də bu məqsədə xidmət edir. Bu tədbirlərdə "Mənim vətəndaşlıq borcum", "Qanlı 20 Yanvar faciəsi", "Xocalı faciəsinin ağır dərdlərini unutmuruq", "Qarabağ düşmən tapdağında qalmayacaqdır", "Azərbaycan mənim vətənimdir", "Kimlərə əsl vətənpərvər demək olar", "Şəhidlər bizə nəyi öyrətdilər", "Vətəni sevmək nə deməkdir" və sair mövzularda məruzə və çıxışlar şagirdlərdə vətənpərvərlik hisslərinin artmasında mühüm rol oynayır. Bu tədbirlərdə məktəbin müəllim və şagird kollektivi ilə yanaşı, kəndin gəncləri də fəal iştirak edirlər.

Vətənpərvərlik mövzularında tədbirlərin keçirilməsində məktəbimizin Azərbaycan dili və ədəbiyyatı müəllimi Günay İsmayılovanın əməyi daha çoxdur. Elə bu yaxınlarda məktəbimizdə G.İsmayılovanın və ingilis dili müəllimi Aytən İbayevanın rəhbərliyi ilə Milli Qəhrəman Mübariz İbrahimova həsr olunan tədbir keçirildi. Bundan başqa, məktəbimizin yuxarı sinif şagirdlərinin iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun evmuzeyinə ekskursiyası da təşkil olundu.

Məktəbimizdə Azərbaycanın müstəqilliyi, azadlığı uğrunda canlarından keçən minlərlə qəhrəmanımızın rəşadətli yolunun gənc nəslə aşılanması işində bundan sonra da diqqətimizi, səy və bacarığımızı əsirgəməyəcək, üzərimizə düşən vəzifələri məsuliyyətlə yerinə yetirməyə çalışacağıq.

Aydın ƏLİYEV,
Tükəvilə kənd tam orta məktəbinin Azərbaycan dili və ədəbiyyatı müəllimi

2014-CÜ İLDƏ LƏNKƏRAN RAYONUNUN SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARI

Sənaye

2015-ci il yanvarın 1-i vəziyyətinə Lənkəran rayonunda 71 sənaye müəssisəsi qeydə alınmış və hazırda onların 28-i fəaliyyət göstərir. Fəaliyyət göstərən müəssisələrin 2-si birgə müəssisə, 4-ü səhmdar cəmiyyəti, 8-i iri və orta, 20-i isə kiçik müəssisələrdir.Rayon sənayesi əsasən qida məhsulları istehsalı, elektrik enerjisinin, qaz və suyun bölüşdürülməsi kimi sənaye sahələri ilə təmsil olunmuşdur.

Ölkədə azad sahibkarlıq mühitinin formalaşması yeni təsərrüfatçılıq formalarının yaranmasına təkan vermişdir. Bunlardan biri də fərdi sahibkarlıqdır. 2015-ci il yanvarın 1-i vəziyyətinə hüquqi şəxs yaratmadan sənaye fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin sayı 91 nəfər olmuş və artmaqda davam edir.

2014-cü ildə rayonun sənaye müəssisələri, habelə fiziki şəxslər tərəfindən faktiki qiymətlərlə 19378,4 min manatlıq sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir. İstehsal olunmuş sənaye məhsulunun həcmi 1998-ci ilə nisbətən 8,9 dəfə, 2013-cü illə müqayisədə isə 11,3 faiz çox olmuşdur.

İstehsalın ümumi həcmində məhsul istehsalının payı 62,3 faiz, xidmətlərin payı isə 37,7 faiz təşkil etmişdir.

2014-cü ildə qeyri-dövlət müəssisələrində istehsalın həcmi əvvəlki ilə nisbətən 6,5 faiz artmış və rayon sənayesinin ümumi məhsulunda onun payı 62,3 faiz olmuşdur.

Sənaye məhsulu istehlakçılarına 14388,5 min manatlıq və ya bütün sənaye istehsalının 97,5 faizi qədər məhsul göndərilmişdir.

2015-ci il yanvar ayının 1-i vəziyyətinə sənaye müəssisələrinin anbarlarında 1002,1 min manatlıq və ya oktyabr ayının 1-i ilə müqayisədə 155,0 min manat az məhsul qalığı olmuşdur.

Lənkəran rayonu sənayesinin əsas hissəsini qida məhsulları istehsalı təşkil edir. Sənayenin bu sahəsi tərəfindən 11379,9 min manatlıq məhsul istehsal edilmişdir ki, bu da bütün emal sənayesi məhsulunun 95,2 faizini təşkil etmişdir.Yeyinti sənayesi məhsulu istehsalı keçən ilə nisbətən 6,2 faiz artmışdır.

2014-cü ildə sənaye müəssisələri tərəfindən natura ifadəsində 6,1 ton təbii çay, 392,4 ton qablaşdırılmış çay, 677,3 ton çörək, 7,5 min dekalitr səməni pivəsi, 14,6 ton kərə yağı, 3245,4 min litr süd, 500,9 ton pendir istehsal edilmişdir.

Sənaye müəssisələrində 1493 nəfər çalışmış və onların orta aylıq nominal əmək haqqı 2013-cü ilə nisbətən 24,4 faiz artaraq 342 manat təşkil etmişdir.

Əsaslı tikinti

2014-cü ildə rayonda istifadəyə verilmiş əsas fondların ümumi dəyəri 59789,4 min manat, əsas kapitala yönəldilmiş investisiyanın həcmi 101636,5 min manat, tikinti-quraşdırma işlərində istifadə edilmiş investisiyanın həcmi 99405,5 min manat təşkil etmişdir.

Rayonda tikinti kompleksinin sabit və dinamik inkişafı yeni istehsal obyektlərinin tikilib işə salınması və yeni iş yerlərinin açılmasına geniş imkan yaradır.

Gücü gündə 15 ton olan çörək zavodu tikilmiş və fəaliyyətə başlamışdır.

2014-cü ildə 2540 şagird yerlik 10 orta məktəb tikilərək istifadəyə verilmişdir.

Ümimi sahəsi 56945,2 kvadrat metr yaşayış evləri istifadəyə verilmişdir. İstifadəyə verilmiş yaşayış evlərinin 56702 kvadrat metri əhalinin şəxsi vəsaiti hesabına tikilmişdir. Rayonun sakinləri özlərinin mənzil şəraitini yaxşılaşdırmaq məqsədilə yaşayış tikintisinə 16752,6 min manat vəsait xərcləmişlər. Şəxsi ev tikintisi ötən ilə nisbətən 2,1 faiz artmışdır.

2015-ci ilin əvvəlinə rayonun ümumi mənzil fondu 3833,4 min kvadrat metr olmuşdur. Onun 3692,1 min kvadrat metri və ya 96,3 faizi fərdi mənzil fonduna, 141,3 min kvadrat metri və ya 3,7 faizi dövlət, ictimai və mənzil tikinti kooperativləri fonduna məxsusdur.

Tikinti sahəsində fəaliyyət göstərən tikinti təşkilatları hesabat ilində öz gücləri ilə 24760,6 min manatlıq və ya əvvəlki ilin səviyyəsindən 9,9 faiz çox tikinti işləri yerinə yetirmişlər. Tikinti işlərinin 6812,4 min manatını (27,5 faizini) yeni tikinti, 15713,0 min manatını (63,5 faizini) əsaslı təmir, 2235,2 min manatını (9,0 faizini) cari təmir işləri təşkil etmişdir.Öz güclərilə yerinə yetirilmiş tikinti işlərinin 6757,8 min manatı (27,3 faizi) dövlət müəssisələrində olan təşkilatların, 18002,8 min manatı (72,7 faizi) qeyri-dövlət mülkiyyətində olan tikinti təşkilatlarının payına düşür.

2015-ci il yanvar ayının 1-nə tikinti sahəsində fəaliyyət göstərən müəssisələrdə işləyənlərin orta sayı 346 nəfər olmuş, onların orta aylıq nominal əmək haqqı 227 manat təşkil etmişdir. Orta aylıq əmək haqqı 2013-cü ilə nisbətən 4,1 faiz artmışdır.

Kənd təsərrüfatı

Lənkəran rayonu ölkənin mühüm kənd təsərrüfatı rayonlarındandır. Rayonun iqtisadiyyatında tərəvəzçilik, meyvəçilik, çayçılıq və heyvandarlıq aparıcı rol oynayır.Bununla belə, təsərrüfatlarda taxıl, bostan və kartof məhsulları da istehsal edilir. Rayonun istifadəsində olan kənd təsərrüfatına yararlı torpaq sahəsi onun ümumi sahəsinin 17,7 faizini təşkil edir. Torpaq islahatı nəticəsində 28194 ailə 12291 hektar torpaq payına sahib olmuşdur. Orta hesabla bir ailəyə 0,4 hektar torpaq sahəsi verilmişdir.

Son illər həyata keçirilən aqrar islahat nəticəsində torpaq və əmlakın özəlləşdirilməsi və sair amillər bitkiçilik və heyvandarlıq məhsullarının istehsalının artırılmasına zəmin yaratmışdır. 2014-cü ildə meyvə istehsalı 0,4 faiz, tərəvəz istehsalı 0,1 faiz, taxıl məhsulları istehsalı 2,7 faiz, üzüm istehsalı 24,6 faiz artmışdır.

2014-cü ildə rayonun təsərrüfatlarında 3483 ton taxıl, 5010 ton kartof, 125988 ton tərəvəz, 2433 ton bostan məhsulları, 17094 ton meyvə, 764 ton üzüm, 97,6 ton yaşıl çay yarpağı istehsal edilmişdir.

Heyvandarlıq məhsulları istehsalı sahəsində dinamik inkişaf davam etməkdədir.Hesabat ilində diri çəkidə 6349 ton ət, 31893 ton süd, 15297 min ədəd yumurta, 38,4 ton yun istehsal edilmiş və onların istehsalı uyğun olaraq 0,1, 2,2, 0,2 və 0,8 faiz artmışdır.

Rayonda mal-qaranın sayı artır. Belə ki, rayonun təsərrüfatlarında 2015-ci ilin əvvəlinə 53348 baş iri buynuzlu mal-qara, o cümlədən 24070 baş inək və camış, 21531 baş qoyun və keçi mövcud olmuş və əvvəlki illə müqayisədə iri buynuzlu mal-qaranın sayı 0,8 faiz, qoyun və keçilərin sayı 0,4 faiz artmışdır.

Rayonda əksər kənd təsərrüfatı məhsulları istehsalının 2013-cü ilə nisbətən artması hesabına kənd təsərrüfatının ümumi məhsulunun həcmi 3,5 faiz artmış, o cümlədən bitkiçilik məhsulları istehsalı 2,5 faiz, heyvandarlıq məhsulları istehsalı 3,7 faiz artmışdır.

Nəqliyyat və rabitə

2014-cü ildə Lənkəran rayonunda avtomobil nəqliyyatı vasitəsi ilə yük daşınması əvvəlki illə müqayisədə 3,1 faiz artaraq 2092 min ton, sərnişin daşınması isə 4,8 faiz artaraq 28337 min sərnişin olmuşdur. Bu dövrdə yük dövriyyəsi 417,3 milyon ton-km olmaqla 4,2 faiz, sərnişin dövriyyəsi 326,2 milyon sərnişin-km olmaqla 5,4 faiz artmışdır.

Nəqliyyat sektorunda məhsul buraxılışının həcmi 9501,9 min manat olmuş və 2013-cü illə müqayisədə 4,4 faiz artmışdır. Məhsul buraxılışının həcmində yük daşınmasından əldə olunan gəlirlər 3259,2 min manat (ümumi gəlirin 34,3 faizi), sərnişin daşınmasından əldə olunan gəlirlər 6242,7 min manat (ümumi gəlirin 65,7 faizi) olmuşdur.

2015-ci il yanvarın 1-i vəziyyətinə rayonda 17339 ədəd avtomobil mövcud olmuş və ya ötən ilin eyni dövrü ilə müqayisədə 949 ədəd artmışdır. Avtomobillərin 14476 ədədini və ya 83,5 faizini minik, 2354 ədədini və ya 13,6 faizini yük avtomobili, 352 ədədini və ya 2,0 faizini sərnişin avtobusu təşkil etmişdir. Hazırda hər 100 ailədən 30-u şəxsi minik avtomobilinə malikdir.

2014-cü ildə rayonun informasiya və rabitə müəssisələri tərəfindən müəssisə və təşkilatlara, habelə əhaliyə 2247,1 min manatlıq xidmət göstərilmişdir. Xidmətlərin həcmi əvvəlki ilə nisbətən 12,4 faiz artımla müşahidə olunmuşdur.

Lənkəran əhalisinin telefon rabitəsi ilə təminatı yüksək səviyyədədir. 2014-cü ilin əvvəlindən rayonda əsas telefon aparatlarının sayı 36 ədəd artaraq 32253 təşkil etmişdir ki, bunun da 30475-i əhalidədir. Bu gün hər yüz ailədən 70-i (və ya Azərbaycanın orta göstəricisindən 3,0 faiz çox) telefon rabitəsi ilə təmin olunmuşdur.

2014-cü ildə rayonun poçt və rabitə müəssisələrində 338 işçi çalışmış, bir işçinin orta aylıq nominal əmək haqqı 384 manat olmaqla, 2013-cü ilə nisbətən 8,6 faiz artmışdır.

Ticarət və xidmət bazarı

2014-cü ildə rayonda pərakəndə ticarət dövriyyəsinin həcmi 297832,1 min manat, əhaliyə göstərilən pullu xidmətlər 72599,8 min manat olmuşdur. 2013-cü illə müqayisədə ticarət dövriyyəsinin həcmi 4,1 faiz, pullu xidmətlərin həcmi 3,1 faiz artmışdır. Ölkənin ümumi əmtəə dövriyyəsində rayonun payı 1,4 faiz təşkil edir.

Pərakəndə ticarət dövriyyəsinin 7,5 faizi hüquqi şəxslərin, 24,8 faizi kənd təsərrüfatı bazarının, əşya və qarışıq mallar yarmarkasının, 67,7 faizi hüquqi şəxs yaratmadan sahibkarlıqla məşğul olan fiziki şəxslər tərəfindən formalaşmışdır. İl ərzində özəl müəssisələrin fəaliyyət dairəsi daha çox genişlənmiş, rayon əhalisinin ərzaq məhsulları və qeyri-ərzaq malları ilə tələbatının ödənilməsində onlar müstəsna rol oynamışdır. Pərakəndə və iaşə əmtəə döriyyəsinin real artımının, demək olar ki, hamısı bu müəssisələrin hesabına əldə olunmuşdur. Hesabat dövründə özəl müəssisələr tərəfindən əhaliyə 297070,4 min manatlıq və ya əvvəlki ilin müvafiq göstəricilərindən 4,1 faiz çox istehlak malları satılmışdır.

Əhalinin alıcılıq qabiliyyətinin getdikcə artması pərakəndə ticarət dövriyyəsinin strukturuna müsbət təsir göstərmiş, əmtəə dövriyyəsində əhalinin pul gəlirlərinin artmasını səciyyələndirən mühüm göstəricilərdən sayılan qeyri-ərzaq mallarının payının artması müşahidə olunmuşdur. 2013-cü illə müqayisədə pərakəndə ticarət dövriyyəsində qeyri-ərzaq mallarının xüsusi çəkisi 37,7 faizdən 38,2 faizə qədər artmışdır.İl ərzində əhaliyə 184060,2 min manatlıq ərzaq, 113771,9 min manatlıq qeyri-ərzaq malları satılmış və onların fiziki həcmi müvafiq olaraq 4,0 və 4,1 faiz artmışdır.

2014-cü ildə Lənkəran rayonunda fəaliyyət göstərən iaşə müəssisələri tərəfindən əhaliyyə 6315,2 min manatlıq və ya 1,6 faiz çox iaşə xidmətləri göstərilmişdir.

Rayonda xidmət sahələrinin fəaliyyətinin genişlənməsi və inkişafı nəticəsində əhaliyə göstərilən pullu xidmətlərin həcmi xeyli artaraq əvvəlki ilin səviyyəsini 3,1 faiz üstələmiş və 72599,8 min manat təşkil etmişdir.

2014-cü ildə əhaliyə göstərilmiş pullu xidmətlərin dörddə bir hissəsi (26,1 faizi) hüquqi şəxslər tərəfindən təmin olunmuşdur.

Hesabat ilində əhaliyə göstərilmiş pullu xidmətlərin 73,9 faizi fiziki şəxslərin payına düşmüşdür. Bu müəssisələr tərəfindən əhaliyə göstərilmiş xidmətlərin real həcmi 2,9 faiz artaraq 53667,9 min manat olmuşdur.

Əhaliyə göstərilmiş pullu xidmətlərin 21,4 faizi dövlət, 78,6 faizi qeyri-dövlət müəssisələrinin payına düşmüşdür.

2014-cü il ərzində rayon əhalisinə 9197,0 min manatlıq məişət xidməti göstərilmişdir ki, bu da 2013-cü ilə nisbətən 0,3 faiz çox olmuşdur. Əhaliyə göstərilən məişət xidmətinin 98,2 faizi fiziki şəxslər tərəfindən həyata keçirilmişdir.

2014-cü ildə orta hesabla rayonun hər sakini tərəfindən ticarət şəbəkələrindən 1356 manatlıq istehlak malları alınmışdır. 2013-cü ilə nisbətən rayonun hər sakini tərəfindən alınmış əmtəənin həcmi 61 manat çox olmuşdur.

Əhali

Lənkəran rayonunun ərazisi 1539 kvadrat kilometr, əhalinin bir kvadrat kilometrə sıxlığı 143 nəfər təşkil edir. Nəzərə alsaq ki, rayon ərazisinin 872 kvadrat kilometrini Qızılağac Dövlət Qoruğunun su altında olan ərazisi təşkil edir, onda rayonda əhalinin 1 kvadrat kilometrə sıxlığı 331 nəfər olacaqdır.Rayonda adambaşına 13,2 ar kənd təsərrüfatına yararlı torpaq sahəsi düşür. 2015-ci ilin yanvar ayının 1-i vəziyyətinə rayonun əhalisi 220780 nəfər olmuş (o cümlədən Lənkəran şəhərinin əhalisi 51785 nəfər) və 2014-cü il ərzində 2628 nəfər, yaxud 1,2 faiz artmışdır. Əhalinin ümumi sayından 110546 nəfərini və ya 50,1 faizini kişilər, 110234 nəfərini və ya 49,9 faizini qadınlar təşkil edir. Əhalinin 39,4 faizi şəhər yerlərində, 60,6 faizi kənd yaşayış məntəqələrində yaşayır. Rayon sakinlərinin 22,9 faizi 0-14 yaşda olan uşaq və yeniyetmələrdən, 69,0 faizi əmək qabiliyyətli yaşda olanlardan və 8,1 faizi əmək qabiliyyətli yaşdan yuxarı olanlardan ibarətdir.

İl ərzində rayonda 3771 nəfər doğulmuş və 1354 nəfər, o cümlədən 8 nəfər 1 yaşa qədər uşaq ölmüşdür. 2013-cü illə müqayisədə əhalinin hər 1000 nəfərinə hesabı ilə doğulanların sayı 17,5-dən 18,1-ə qədər, ölənlərin sayı isə 6,1-dən 6,2-ə qədər artmışdır. Təbii artım 11,4-dan 12,0-a qədər, hər 1000 nəfər diri doğulana 1 yaşa qədər ölən uşaqların sayı isə 1,3-dən 2,0-a qədər artmışdır.

2014-cü ildə rayonda 1837 nikah və 159 boşanma qeydə alınmış və ötən illə müqayisədə əhalinin hər 1000 nəfərinə hesabı ilə nikahların sayı 9,4-dən 8,4-ə qədər, boşanmaların sayı isə 0,9-dan 0,7-ə qədər azalmışdır.

Təhsil, səhiyyə, mədəniyyət, sosial təminat

Rayon əhalisinin təhsil səviyyəsi ilbəil artır. 2009-cu il əhalinin siyahıyaalınması məlumatlarına görə 15 və yuxarı yaşda əhalinin hər 1000 nəfərinə 963 və ya 1999-cu illə müqayisədə 28,1 faiz çox ali və ümumi orta təhsilli şəxs düşür.

2014-2015-ci dərs ilinin əvvəlinə rayonda 89 gündüz ümumtəhsil məktəbi fəaliyyət göstərir ki, təhsil müəssisələrində 29,5 min şagird təhsil almışdır. Ümumtəhsil məktəbləri şagirdlərinin 14,9 faizi ikinci növbədə oxuyurlar.

Lənkəran şəhərində 2 dövlət orta ixtisas təhsil müəssisələrində 1361, ali təhsil müəssisəsi – Lənkəran Dövlət Universitetində isə 2081 tələbə oxuyur.

2014-2015-ci dərs ilində ali təhsil müəssisələrinə 607 tələbə qəbul olunmuş, buraxılış isə 363 nəfər təşkil etmişdir.

Orta ixtisas məktəblərinə 320 tələbə qəbul olunmuş, 290 nəfər isə məktəbi bitirmişdir.

Əhalinin sağlamlığının qorunması məqsədilə rayonda 12 xəstəxana, 47 ambulator-poliklinika müəssisəsi fəaliyyət göstərir və onlarda 482 həkim və 1156 orta tibb işçisi çalışır. Rayon əhalisinin hər 10000 nəfərinə 22,3 həkim, 53,6 orta tibb heyəti, 31,3 xəstəxana çarpayısı düşür. Əhalinin xəstələnməsi hallarının arasında tənəffüs orqanlarının, dəri və dərialtı toxumaların, yoluxucu və parazitar, qan dövranı sisteminin xəstəlikləri üstünlük təşkil edir.

Hazırda Lənkəran rayonunda 1 teatr – Nəcəf bəy Vəzirov adına Lənkəran Dövlət Dram Teatrı, 4 muzey, 74 kütləvi kitabxana və 79 klub müəssisəsi fəaliyyət göstərir.

2014-cü ildə rayonun Dövlət sosial müdafiəsi orqanlarında 29956 nəfər pensiyaçı qeydə alınmışdır, onlardan 17695 nəfəri yaşa görə, 9514 nəfəri əlilliyə görə, 2747 nəfəri ailə başçısını itirdiyinə görə pensiya alanlardır. Bir nəfərə düşən orta aylıq pensiyanın məbləği 155,0 manat olmuşdur. 7088 nəfərə sosial müavinət təyin olunmuş və 1 nəfərə düşən orta aylıq məbləğ 65 manat olmuşdur. 2014-cü ildə 12020 nəfərə ünvanlı dövlət sosial yardımı verilmiş və 1 nəfərə düşən orta aylıq məbləğ 28,93 manat olmuşdur.

Əmək bazarı

Əhalinin həyat səviyyəsinə digər amillərlə yanaşı, məşğulluğun dəyişməsi və onun əmək bazarına təsiri mühüm rol oynayır. 2014-cü ildə işləyən və işsiz əhalini əhatə edən iqtisadi fəal əhalinin sayı rayon üzrə 107,6 min nəfər olmuş və əhalinin 49,0 faizini təşkil etmişdir.

Məşğul əhalinin 22,6 min nəfəri yaxud 22,1 faizi muzdla işləyənlərin payına düşmüşdür. Muzdla işləyənlərin 2,4 min nəfəri və ya 10,6 faizi maddi istehsal sahəsində, 20,2 min nəfəri və ya 89,4 faizi isə xidmət sahəsində çalışanlar olmuşdur.

2014-cü ildə iqtisadi fəaliyyət növləri üzrə muzdla işləyən işçilərin 3,0 faizi kənd təsərrüfatında, 6,9 faizi sənayedə, 1,7 faizi tikintidə, 23,9 faizi topdan və pərakəndə ticarətdə, 3,7 faizi nəqliyyat və rabitədə, 0,3 faizi yaşayışın təşkili və iaşədə, 1,8 faizi maliyyə və sığorta fəaliyyətində, 6,0 faizi dövlət idarəetməsində, 33,4 faizi təhsildə, 11,0 faizi səhiyyədə, 8,3 faizi isə kommunal və sosial xidmətlərdə olmuşdur.

Məşğulluq xidmətləri tərəfindən rayon üzrə rəsmi işsiz statusu verilmiş şəxslərin sayı 2015-ci il yanvarın 1-i vəziyyətinə 264 nəfər təşkil etmişdir. İşsizlik müavinəti alanların sayı 12 nəfər olmuşdur.

Əhalinin həyat səviyyəsinin yüksəlməsini səciyyələndirən orta aylıq nominal əmək haqqı 2014-cü ildə 266 manat təşkil etmiş və əvvəlki illə müqayisədə 9,5 faiz çox olmuşdur.

Ən yüksək orta aylıq nominal əmək haqqı maliyyə və sığorta fəaliyyətində, elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsində, dövlət idarəetməsində olmuşdur.

Lənkəran Rayon Statistika İdarəsi

2015-Cİ İL KƏND TƏSƏRRÜFATI İLİDİR

ÇAYÇILIĞIN İNKİŞAFI BİZİ SEVİNDİRİR

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə 2015-ci il "Kənd təsərrüfatı ili" elan edilmişdir. Bu, aqrar sahədə çalışan sahibkarların məsuliyyətini daha da artırır və qarşıya yeni vəzifələr qoyur.

Cənub zonasında, o cümlədən rayonumuzda çayçılığın bərpa olunması, bu istiqamətdə həyata keçirilən tədbirlər bizi çox sevindirir. Bu məqsədlə kəndimizdə "Astara Çay" MMC-nin fəaliyyətə başlaması kənd camaatının böyük sevincinə səbəb olmuşdur. Bu müəssisə çayçılığı inkişaf etdirməklə yanaşı, kənd zəhmətkeşlərinin işlə təmin olunmasına da şərait yaratmışdır.

Hazırda çay sahələrində yaz şumu aparılır. Bundan başqa, çay şitilliklərinin alaq otlarından təmizlənməsi, gübrə verilməsi və digər aqrotexniki tədbirlər də həyata keçirilir. Fəhlələrdən Sənubər Abbasova, Asudə Ağayeva, Sevil Abbasova, Validə Ağayeva və başqaları aqrotexniki tədbirlərin vaxtında və keyfiyyətlə aparılması üçün səylə çalışırlar.

Kənd sakinləri çayçılığın inkişaf etdirilməsində əmək sərf edən Məhdud Məsuliyyətli Cəmiyyətin rəhbəri Tələt Məmmədova, aqronomlar İsrafil Məmmədova, Şirqasım Məmmədova dərin təşəkkürlərini bildirirlər.

Şahrza AĞAYEV,
Girdəni kənd sakini

"ZƏRƏRLİ VƏRDİŞLƏRİN İNSAN ORQANİZMİNƏ MƏNFİ TƏSİRİ"

Fevralın 19-da FHN Cənub Regional Mərkəzində şəxsi heyətlə birgə "Zərərli vərdişlərin insan orqanizminə mənfi təsiri" mövzusunda tədbir keçirilmişdir.

Tədbiri giriş sözü ilə açan Mərkəzin rəisi, polkovnik Zəmani Dadaşov qeyd etmişdir ki, bu gün bəşəriyyəti düşündürən, rahatsız edən ən ağrılı problemlərdən biri və ən başlıcası cəmiyyətin ciddi bəlasına, xalqın, millətin təhlükə mənbəyinə çevrilən narkomaniyadır. Ancaq yaddan çıxarmaq olmaz ki, narkomanlıq yoluxucu xəstəlikdir. HİV virusuna, QİÇS-ə aparan bir yol kimi, gizli şəkildə sürətlə yayılmaq xüsusiyyətlərinə malikdir. Yeniyetmə və gənclərin narkomaniyaya qurşanması onların təhsildən yayınmasına, ictimai həyatdan uzaqlaşmasına, şəxsiyyətin məhv olmasına və sosial tarazlığın pozulmasına, ətrafdakı insanlara daha çox cinayətkar simasının aşılanmasına, ən əsası da sağlamlıqlarının zərbə altında qalmasına səbəb olur.

Tədbir zamanı çıxış edən natiqlər bildirdilər ki, narkomaniyanın getdikcə genişlənərək cəmiyyətin və dövlətin qarşısında duran vacib problemlərdən birinə çevrilməsi, gənclər arasında narkoman və toksikomanların sayının artması, narkotiklərə aludə olanların orta yaş həddinin aşağı düşməsi və narkomaniya ilə əlaqədar cinayətlərin sayının artması əksər dövlətlərdə olduğu kimi, ölkəmizdə də narahatçılıq doğurur, mövcud problemin həlli üçün yollar araşdırılır, müxtəlif təkliflər irəli sürülür. Narkotiklərin qeyri-qanuni dövriyyəsi və istifadə miqyasının genişlənməsi əhalinin sağlamlığına, millətin genefonduna, sosial-siyasi və iqtisadi stabilliyinə, dövlətin təhlükəsizliyinə və ictimai asayişə ciddi təhlükə yaradan amilə çevrilir.

Tədbirin sonunda bəşəriyyətin ən böyük bəlalarından olan narkomaniyanın cəmiyyətin mənəvi və əxlaqi dəyərlərinə böyük zərbə vurmaqla yanaşı, həm də sosial-iqtisadi inkişafa mənfi təsir göstərdiyi, insanların həyat və sağlamlıqlarına ciddi təhlükə yaratdığı, cinayətkarlığın artmasına təkan verdiyi qeyd olundu. Narkomaniyanın yayılmasının qarşısının alınması məqsədilə xüsusilə yeniyetmələr arasında narkotik maddələrin ziyanlı tərəfləri, daha sonra baş verə biləcək fəsadları barədə geniş maarifləndirmə tədbirlərinin aparılmasının vacibliyi bir daha tədbir iştirakçılarının diqqətinə çatdırıldı.

FHN Cənub Regional Mərkəzinin İctimaiyyətlə əlaqə və təbliğat sektoru

MÜTƏXƏSSİS SÖZÜ

AVOKADA MEYVƏSİNİN ƏHƏMİYYƏTİ HAQQINDA

Avokada Meksikanın tropik bitkilərindəndir. Bu bitki özünün yüksək keyfiyyətli meyvəsinə görə bir çox tropik və subtropik iqlimi olan ölkələrdə geniş yayılmışdır. Öz vətənində əhalinin əsas qida məhsullarından biridir. Avokada meyvəsi özünün qidalı, dietik və müalicəvi əhəmiyyəti ilə seçilir.

Meyvənin əti, növündən asılı olaraq, meyvənin ümumi çəkisinin 65-85 faizini, toxumu isə 35-15 faizə qədərini təşkil edir. Onun ən yaxşı "Fuerte" sortunda meyvənin əti 74-93 faizə qədər olur.

Digər sortlarda meyvənin əti 78-80 faiz, ətlik kütlədən və 20-22 faizi isə qabıqdan ibarətdir. Növündən asılı olaraq meyvənin çəkisi 100-200 qram olur. Meyvə armurdvari şəkildə, uzunluğu 6-7 santimetrdir.

Meyvənin əti tərkibində faizlə:
Piy - 9,8 -30;
Protein sadə zülallar - 1,6 -2,1;
Kül maddələr - 1-1,8;
Su aralı 60-70 faiz olur.
Vitaminlər "A", "B1" , "C", "B2", "E", "PP", "K" vardır.

Kalorililiyinə görə avokada meyvəsi iki dəfə bitki yağından və qidalılığına görə yumurtadan üstün tərkibə malikdir. Meyvə təzə halda, şoraba və yaxud şəkər tozu ilə istifadə olunmaqla yanaşı, ondan soyuq yemək, püre, dondurma və sair yeməklər hazırlanır.

Meyvənin toxumunda iki faiz piy, otuz faiz nişasta, alma turşusu, şəkər, pektin, tanin vardır. Onun yarpağından, çiçəyindən və qabığından müxtəlif müalicəvi təyinatlı preparatlar hazırlanır.

Meyvəsindən alınan yağ ətriyyat sənayesində istifadə edilir.

Meyvəni 4,5-7 dərəcə C şəraitində iki ay müddətində saxlamaq olur. Avokada bitkisinin hündürlüyü on iki metr, çətirin diametri isə altı metrəyə çatır.

ABŞ-ın Kaliforniya ştatında adətən bir hektarda, iki yüz ağac olmaqla 16 ton meyvə məhsulu əldə olunur və bunun 11,2 tonu yeməli ətlik hissə, o, cümlədən: 2,24 tonu isə yağ məhsulundan ibarətdir. Məhsuldar bir ağac 300-400 meyvə verir. Avokada həmişə yaşıl ağac bitkidir. Bu bitki 4-5 yaşda çiçək açır və meyvə verir. Calaqetmə üsulu zamanı 2-3 ildə, toxumla çoxaltma üsulunda isə 6-8 yaşlarında məhsul verir.

Meksika sortlarının yarpaqları və cavan budaqları -4-6 dərəcə, Qvatemala sortları isə 1,7-4 dərəcə aşağı temperaturlu havada zədə alır. Avokada bitkisinin çiçəklənməsi uzun-uzadı vaxtda olur. Ilin oktyabr ayında qönçələr əmələ gəlir, qarşıdakı ilin martın axırları, iyun ayının əvvəllərində çiçəklər açılır. Meyvələr oktyabrın axırlarında və noyabr ayında yetişir.

Əlişa ƏLİYEV,
Gürcüstan Subtropik Təsərrüfatı İnstitutunun məzunu

GENERALLA SÖHBƏT

(Lirik poema)

İki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun Lənkəran şəhərində ucaldılmış əzəmətli abidəsinin önündə düşüncələr.

Ön söz

Demə səndən sonra düzəlib dünya,
Qəlbi nisgillidir, əzilib dünya.
Yenə silahlara tuş gəlib dünya,
Yerin görünür.

General, kim deyir yoxsan həyatda,
Yox, indi bir deyil, çoxsan həyatda.
Gör nələr yaşanır, baxsan, həyatda
Yerin görünür.

Laçın nalə çəkir, Şuşa ağlayır,
Kəlbəcər, Qubadlı ürək dağlayır.
Ağdam qurtulmağa günləri sayır,
Yerin görünür.

Xocalının getmir ağrı-acısı,
Hələ alov saçır körpə yanğısı.
Düşmən tapdağıdır yurdun yarısı,
Yerin görünür.

Təhlükə yaranıb milli varlığa,
Nə vaxt son qoyular nigaranlığa.
Yenə də meydan var qəhrəmanlığa,
Yerin görünür.

I söhbət

Gəldim hüzuruna, cənab general,
Əmrinə müntəzir bir əsgər kimi.
Qəlbimdə həsrətdən doğan bir məlal,
Beynimdə duyğular səfərbər kimi...

Eloğlu, borcumdur, ziyarətinə
Bir dəstə ətirli çiçəklə gəldim.
Sığınıb sərhədsiz şan-şöhrətinə,
Sənə sevgi dolu ürəklə gəldim.

Baxırsan, Vətəndən gözün doymayır,
Oxşayır ruhunu dağ küləkləri.
Abidən önündə əskik olmayır
Doğma Lənkəranın gül-çiçəkləri.

Vətənçün atıldın hərbin oduna,
Elindən yox idi nigaranlığın.
Öz doğma elinə, ana yurduna
Gəldi heykəlləşən qəhrəmanlığın.

Qəlbimdə alışıb sönməyən istək,
Gəlirəm yanına hər səhər çağı.
Açıb qucağını sənə ana tək
Bir vaxt doğulduğun Vətən torpağı.

Qurub yaratmaqla açılır səhər,
Gördüyün əvvəlki dağ, aran deyil.
Əzablı keçmişdən qalmayıb əsər,
Lənkəran indi o Lənkəran deyil.

Xəyalım dolaşır həyat yolunu,
Səndənmi güc alıb dəmirağaclar.
Qaldıra bilmirsən indi qolunu,
Həsrətdən qocalıb dəmirağaclar.

Gördün bu həyatın sınaqlarını,
Doğuldun qeyrət yox, bir qeyrət tacı.
İndi qarşılayır qonaqlarını
Əlinlə əkdiyin innab ağacı.

Narahat görürəm ana Xəzəri,
Dalğalar sahili aşmaq istəyir.
Yığıb həsrətini illərdən bəri,
Sənə ürəyini açmaq istəyir.

Baxır bu dünyaya qartal gözlərin -
Gözlərin Xəzərdən nur alıb yoxsa?
Sahillərə düşən ayaq izlərin
Sənin əvəzinə qocalıb, yoxsa?

Qartal uçurtsa da öz zirvəsindən,
Dik tutub başını Talış dağları.
Ürəyi yansa da ağır itkidən,
Sıxıb göz yaşını Talış dağları.

Bir həsrət bürüyüb burda hər yeri,
Həsrətin qoynunda bir məlal yatır.
Görən Baloğlanın varmı xəbəri? –
Dağüstü parkında General yatır.

Sənsiz ötüşməyir nə toy, nə büsat,
Hər şeyi sənինlə bölüşürük biz.
Evində elə bil donubdur həyat,
Sənsiz daşa dönüb ürəklərimiz.

Sevinc dolu illərin
İzini axtarıram.
Bir az dəcəl, balaca
Həzini axtarıram.

Burda sükut hökmüran,
Bura bir qəm yuvası.
Sıxılır qəmdən ürək,
Çatışmayır havası.

Burda donubdur zaman,
Görüşməyə yox güman.
Gözəl səliqə-sahman
Həzini vermir bizə.

Süzürəm qonaqları,
Yol çəkir baxışları.
Qanlı döyüş paltarı
Həzini vermir bizə.

Neçə orden-medallar,
Zəngin eksponatlar...
Həzidən başqa nə var,
Həzini vermir bizə.

Doğma Vətənə sevgi bu həyətdan başlanıb,
Öncə Nüşü anaya məhəbbətdən başlanıb.
Bu sevgidən güc axıb ürəyinə, qoluna,
Bu sevgiylə çıxmısan şanlı döyüş yoluna.

Nüşü ana su səpdi dalınca neçə kərə,
Tərk edib Lənkəranı yollandın döyüşlərə.
Volqadan Baltikədək getdi Vətən sevgisi,
Misilsiz rəşadətlə bitdi Vətən sevgisi.

II söhbət

General, bir az da cəbhədən deyək,
Çıxaq səyahətə döyüş yolunu.
Nəsillər yaxından tanısın gərək
Xalqın vətənpərvər, cəsur oğlunu.

Yoxsa qəhrəmanlıq sənինlə bitdi? -
Hərbin tarixinə yazdın adını,
Hətta düşmənin də etiraf etdi
Böyük sərkərdəlik istedadını.

Çox sərkərdə görüb dünya hərbisi,
Hərə yeniliklə tarixə düşüb.
Sən oldun Cavanşir, Babək varisi,
Baxma ki, aradan illər ötüşüb.

Qəlbində min zəfər, qələbə əzmi,
Aldın faşistlərdən el qisasını.
Gətirdin hərbiyə yenilik kimi
"Cinahlardan zərbə" taktikasını.

- İrəli, qartallar! - döyüş əmrinlə
Sanki yer yarılır, göy titrəyirdi.
Çaldığın hər döyüş zəfəri ilə
Üzünə, gözünə işıq gəlirdi.

- Həzidən öyrənin! - yazdı "Pravda"
- Düşmənə qələbə çalmaq elmini.
Bir əfsanə idin öz sağlığında,
Səndən olmaz, gəzsək hərb aləmini.

Oldu döyüş yolun ömründən uzun,
Volqadan Baltikə uzandı bu yol.
Qaldı hər döyüşdə silinməz izin,
Bütün döyüşləri qazandı bu yol.

Barıt qoxusuyla nəfəs çəksən də,
Nə biləsən hədəf seçərlər səni.
Düşmən cəbhəsini yarıb keçsən də,
Tamam boş buraxdın arxa cəbhəni.

Sevdin yad torpağı sən dönə-dönə,
Lakin göz dağıydı müsəlmanlığın.
Bəyan edilsə də çatmadı sənə
İkinci ulduzu qəhrəmanlığın.

Min ağac əkərək yetişdirsən də,
Fəqət meyvəsini dərə bilmədin.
Can qoydun, qan qoydun hər qələbədə,
Qələbə gününü görə bilmədin.

Düşmənin başında çaxan bir şimşək,
Ölkənin umduğu imdadı oldun.
Getdin döyüşlərə adi əsgər tək,
Qayıtdın, Vətənin övladı oldun.

General Səməd bəy ilk müəllimin,
Çatdı məqamına xeyir duası.
Şagirdiylə qürur duyardı yəqin,
O hərb sənətinin mahir ustası.

Hər zəfər ardınca çaldıqca zəfər,
Boyadı torpağı düşmənin qanı.
Qələbə uğrunda Baltikə qədər
Apardın qəlbində Azərbaycanı.

Sən hardan biləydin ərzə hökm edən
Sovetlər Birliyi dağılacaqdır.
Qələbə iziylə Berlinə gedən
Xalqın öz qanında boğulacaqdır.

Sən hardan biləydin Sovet rəhbəri
Erməni ağlının əsiri imiş.
Torpaqdan pay ummaq - illərdən bəri
Millətin bir köklü kəsiri imiş.

Ya da "Böyük qardaş" pozar ilqarı,
Silahı xalqına çevirəcəkdir.
O vaxt düşmən üstə gedən tankları
Nə vaxtsa Bakıya yeridəcəkdir.

Sən hardan biləydin, cırtdan erməni
Dünya ağalığı fikrinə düşər.
Böyük qardaşından alıb dəstəyi,
Böyük cinayətin məkrinə düşər.

Fikirlər, əzablar üzsə də məni,
İntiqam hissi ilə səbrim daralır.
Özgə torpağından qovub düşməni,
Öz doğma torpağın işğalda qalır.

III söhbət

Salam, Vətən oğlu, salam, general,
Demə odlu illər arxada qalıb.
İndi gördüklərin olsa da xəyal,
Fəqət millətinə qan, qada qalıb.

Dəyişib dünyanın abı-havası,
Dünya çalxalanır bir ümman kimi.
Bitmir ermənինin yer iddiası -
Atılıb ortaya "qəhrəman" kimi.

"Super güclər" meydan sulayır yenə,
Zəiflər udulur bir həb yerinə.
Halal, haram dəyib biri-birinə,
Qarışıb əhvalı yaman dünyanın.

Nüvə tarazlığı pozulub çoxdan,
Ölkələr talanır, çıxır var-yoxdan.
Nankor övladların atdığı oxdan
Tutub gözlərini al qan dünyanın.

Bürüyür vahimə bütün xalqları,
Atılır ayağa insan haqları.
Od-alov püskürür hərb ocaqları,
Yoxdur sabahına güman dünyanın.

Ana ürəyindən bir dağ getməmiş
Neçə-neçə şəhid balası gəldi.
Qarabağ ağrısı hələ bitməmiş
20 Yanvarın bəlası gəldi.

Həyat bahasına, can bahasına
Arzusu çin olub min qəhrəmanın.
Qırğınlar, talanlar, qan bahasına
Yaranıb müstəqil Azərbaycanın.

(Ardı var)

Xudaverdi CAVADOV,
Lənkəran 2015

BOKS YARIŞINA YEKUN VURULDU

Lənkəran şəhər Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Lənkəran Regional Boks Mərkəzində 5 mart Bədən tərbiyəsi və İdman gününə həsr olunmuş boks idman növü üzrə açıq rayon birinciliyinə yekun vurulub.

Birincilikdə 70 boksçu iştirak edib. Onlardan 30-u 1999-2000-ci il təvəllüdlü idmançıların, 40-ı isə 2001-2002-ci il təvəllüdlü boksçuların yaş qrupunda birincilik uğrunda mübarizə aparıb.

Yarışda Lənkəranla yanaşı, Masallı, Astara, Salyan, o cümlədən Bakıdan olan idmançılar da qüvvələrini sınayıb. Uşaq-gənclər idman məktəbinin təşkil etdiyi açıq rayon birinciliyində məqsəd perspektivli idmançıları aşkarlamaq və eyni zamanda, boks üzrə yeniyetmələr arasında rayonun yığma komandasının tərkibini müəyyən etmək olub.

Yarışın yekununda komanda hesabında Lənkəran boksçuları 1-ci, Bakının "Dinamo" komandası 2-ci, Masallı komandası isə 3-cü yeri tutub.

Qeyd edək ki, birincilikdə fərqlənən idmançılar rayon yığma komandasının tərkibinə cəlb edilib. Eyni zamanda, həmin idmançıların aprel ayında keçiriləcək Azərbaycan çempionatında iştirakı təmin ediləcək.

LƏTİFƏYƏ DÖNMÜŞ HƏQİQƏTLƏR: GƏRMƏTÜK

Yaz ayları idi. Havalar istiləşmişdi. Briqadir səhər tezdən qadınları çağırıb işə aparırdı. Növbəti günlərin birində Sərdar kişi yuxudan bir az gec durur. Əl-üzünü yuyur və keçir tikiş maşınının arxasına. Bir azdan arvadını çağırır:

– Vəciyə, ay Vəciyə.

Bir neçə dəfə çağırandan sonra Vəciyədən səs çıxmadığını görüb qızını çağırır:

– Şövkət, ay Şövkət!

Şövkət gözlərini silə-silə yataqdan durub atasının yanına gəlir.

– Nədir, ata? - soruşur.

Ata: Anan hanı?

Şövkət: Briqadir kolxoza apardı.

Sərdar: Mən bilmirəm, bu köpəyin qızını özüm üçün almışam, ya kolxoz üçün?

***

Biz uşaq olan dövrlərdə qar çox yağardı. Növbəti qarlı günlərin birində qar küləklə gəlirdi. Yerdə dizdən yuxarı qar var idi. Naharla günorta arası vaxt idi. Birdən hardasa tüfəng səsi gəldi. Dərzi (qonşumuz) Sərdar pəncərə qabağında oturub nəsə tikirdi. Tüfəng səsinə o da pəncərədən baxır. O vaxt onların həyəti çox uzun idi. Göydən bir ördəyin həyətlərinin o başında başaşağı qara düşdüyünü görür. Tez Aydın adlı oğlunu çağırıb deyir:

– Qaç həyətin o başına, tüfənglə ördək vurdular, düşdü bizim həyətə, onu götür gəl.

Aydın qalın qarı dizləri ilə yara-yara həyətin o başına gedir.

Sən demə, qonşu Ağalının qardaşı Əliqulu da (hamı ona Əqon deyərdi, atamdan başqa) ördəyin yerə düşdüyünü görür. Əqon Aydından qabaq özünü çatdırır və ördəyi götürür. Aydın isə əliboş geri qayıdır. Aydın evə girəndə atası Sərdar soruşur:

– Ördəyi gətirdin?

Aydın: Yox.

Sərdar: Niyə?

Aydın: Əqon götürdü.

Sərdar: Ədə, ördəyin dalınca səni göndərmişdim, ya Əqonu?

Sual cavabsız qalır.

***

Əjdərin boyu balaca olduğuna görə ona "malenkiy" Əjdər deyərdilər. Əjdəri bir vaxt kənd kitabxanasında işlə təmin edirlər. Bir müddət keçəndən sonra kitabxanaya yoxlama gəlir. Xeyli kitabın çatışmazlığı meydana çıxır. Axırda komissiya qərara gəlir ki, Əjdər siyahı tutsun və müxtəlif adamların adına çatışmayan kitabları yazsın.

Əjdər düşür qapılara. Növbə bizim evə çatanda Əjdər girir həyətə. Yay vaxtı olduğuna görə anam eyvanda oturmuşdu. Bizdəki uşaqlar Əjdərin həyətə girdiyini görüb yığışırlar anamın başına. Qonşu uşaqları da Əjdərə görə maraq üçün gəlirlər bizə. Əjdər qalır uşaqların əhatəsində. Nə deyəcəyini yadından çıxaran Əjdər uşaqların hamısını nəzərdən keçirib deyir:

– Xədicə, bunların hamısı sənin qarnından çıxıb?

Anam da Əjdərə ona uyğun cavab verir:

– Mənim qarnımdan çıxar da, sənin qarnından çıxmaz ki.

Əjdər kitab siyahısını yaddan çıxarır və həyətdən çıxır.

***

Əjdərin birinci oğlu Cəbi (Cəbrayıl) anadan olanda Əjdər çıxır asfalta – şose yoluna. Axşam çağı olduğundan pesədəki İman Müzəffərov avtobusdan düşür və evinə tərəf yol alır. Bunu görən Əjdər İmana yaxınlaşıb deyir:

– İman, arvadım doğub, oğlum olub. Mənə muştuluq ver də.

İman da gülə-gülə cibindən bir 25-lik çıxarıb Əjdərə verir.

Akif AĞAYEV

VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Lənkəran Şəhər-Rayon Polis Şöbəsinin dövlət yol polisi bölməsində vakant olan 8 (səkkiz) yol patrul xidməti inspektoru vəzifələrinə xidmətə qəbulla əlaqədar müsabiqə elan edir.

- Yaşı 20-dən az 30-dan çox olmayan aşağıdakı şərtlərə uyğun;
- Azərbaycan Respublikası Silahlı Qüvvələrində həqiqi hərbi xidmət müddətini tam başa vurmuş (qadınlar istisna olmaqla);
- Boy ölçüsü 175 sm;
- Düzgün bədən quruluşlu və idman cüssəli, avtomobil nəqliyyatına aid olan orta ixtisas və ya ali təhsilli;
- Avtomobili 5 (beş) il müddətinə idarə etməsini təsdiqləyən müvafiq sənəd təqdim etdikdə, yaxud sürücü kimi 3 (üç) il əmək stajına malik olan, Baş Dövlət Yol Polisi İdarəsinin Lənkəran Regional Qeydiyyat İmtahan və Texniki Baxış şöbəsi tərəfindən yol hərəkəti qaydaları üzrə nəzəri bilikləri və sürücülük vərdişləri və DİN-in Əməliyyat Rabitə İdarəsində kompüterlə işləmək qabiliyyəti yoxlanıldıqdan sonra vəzifəyə təyin edilə bilərlər.

Müsabiqədə "Azərbaycan Respublikasının Daxili İşlər Orqanlarında xidmətkeçmə haqqında Əsasnamə"nin müəyyən olunmuş şərtlərinə cavab verən Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

Lənkəran Şəhər-Rayon Polis Şöbəsi

ƏZİZ OXUCULAR!

2015-ci ilin birinci yarımilliyi üçün "Lənkəran" qəzetinə abunə kampaniyası davam edir.

ALTI AYLIQ ABUNƏ QİYMƏTİ 15 MANATDIR

Əlavə məlumat almaq üçün Mətbuatyayımının Lənkəran rayon şöbəsinə 255-24-99, 255-27-61 və redaksiyamıza 255-35-05, 255-35-49 nömrəli telefonlara zəng edə bilərsiniz.

"Lənkəran" qəzeti

İtmişdir

Lənkəran Rayon Hərbi Komissarlığı tərəfindən Liman şəhər sakini Müzəffərov Anar Sədaqət oğlunun adına verilmiş hərbi bilet, eyni zamanda onun adına olan sürücülük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

ALLAH RƏHMƏT ELƏSİN

Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov və Aparatın kollektivi Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam **Allahşükür Paşazadəyə** və Milli Məclisin deputatı **Cavanşir Paşazadəyə**, əzizləri

Həsənağa Paşazadənin

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Lənkəran şəhər Təhsil şöbəsinin kollektivi **Beytulla** və **Azər Cəfərovlara**, əzizləri

Nazimin

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Redaktor
İltifat ƏHMƏDOV

TƏSİSÇİLƏR:
Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının aparatı və "Lənkəran" qəzetinin yaradıcı kollektivi

HESAB NÖMRƏMİZ:
AZ30AIIB33010019443860238138
VÖEN 2600244411
Kapital Bankın
Lənkəran şöbəsi
lisenziya № V 343
İndeks: 66920

ÜNVANIMIZ:
Lənkəran şəhəri, Heydər Əliyev prospekti, 3 (4-cü mərtəbə)
Telefonlar: 255-35-05, 255-35-49
E-mail: lenkeranqezeti@mail.ru
Məsul növbətçi
Natiqə Ağayeva

Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış və səhifələnmiş, Bakıda "CBS PP" firmasının mətbəəsində çap olunmuşdur.
Tiraj: 2840